YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol!

# Tanınmış rəssam Hüseyn Mirtəqəvinin əsərləri Qəbələdə

***Adətən səfərdə olarkən heç bir qeyd aparmıram. Yaddaşıma nə yazılırsa, onları sonradan xatırlayıb qələmə almağı daha çox sevirəm. Buna görə də səfərə dəftərsiz, qələmsiz, diktofonsuz və bilgisayarsız çıxıram, bircə əlimdə mobil telefonum olur. Onu da ona görə götürürəm ki, maraqlı hadisələr, təbiət peyzajları, mənzərələri olanda çəkib dostlarla paylaşa bilim. Bu dəfə də belə oldu…***

Ta gənclik illərimdən ömrümün deyərdim ki, çox hissəsi yollarda, mənimçün ayrılmış məkanların gözləmə salonlarında keçib. Səfərlərimlə bağlı saysız-hesabsız xatirəm var. Onları kağız üzərinə, yaxud bilgisayar yaddaşına köçürmək üçün bir ömür belə yetməz… Amma bu, mənim həyatımın ən unudulmaz səfərlərindən biri oldu. Daha doğrusu, özündən öncəki bütün səfərlərin təəssüratlarını və xatirələrini kölgədə qoyacaq bir yolçuluq…

…Bu yolçuluq Bakımızın "Şamaxinka" deyilən ərazisindən başladı. Buraya hamıdan tez mən gəlmişdim, baxmayaraq ki, gecə növbəsində olmuş və cəmi 3 saat yuxu yatmışdım. Tezdən - yeni səhər saat 6-nın yarısından danışdığımız kimi, artıq adıçəkilən ərazidəydim.




Əməkdar jurnalist Şəmsiyyə Kərimova və öz aramızda yaratdığımız "5 qardaş" Ədəbi Birliyinin qadın üzvü, "qardaş" deyə çağırdığımız jurnalist həmkarımız Təranə Cəbiyeva ilə yol yoldaşı olacaqdım. Təranə xanımla dəfələrlə səfərlərdə olmuş, bir-birimizin xeyir-şər məclislərində iştirak etmişik. Amma Şəmsiyyə xanımla ilk dəfəydi ki, Bakıdan səfərə yola düşürdük. Ona görə yol boyu aylardan bəri üzərimə yüklənmiş neqativ enerjini günəşli, təmiz rayon havası ilə təmizləmək qərarına gəldim.

Onlarla bağlı düşüncələrimi geridə buraxıb… Bakının sərin, bir az da küləkli havasını siqaret tüstüsü kimi qol-boyun edib ciyərlərimə çəkirəm. Şərtləşdiyimiz məkanın ətrafını dolaşıram, yoldaşlarıma sərinləşdirici içki almaq üçün mağazaya getmək istəyirəm, amma mağaza



qapılarını hələ açmamışdı. Əvvəlcə Təranə xanım, ardınca 20 dəqiqə sonra Şəmsiyyə xanım gəldi.

…Beləcə, maşına oturub yola düzəlirik. 3 saat yarım ötüb keçir və paytaxtın tıxaclarından birtəhər qurtulub Qobustan, Şamaxı, İsmayıllı rayonlarını bir-bir adlayıb Qəbələyə yaxınlaşırıq. Qəbələnin girəcəyindəki yolda "Qəbələnin səsi" Ədəbi Birliyinin sədri Şəhla Xəlilqızı zəng edib harada olmağımızla maraqlanır. Biz artıq Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovun xatirəsinə "Qəbələnin səsi" Ədəbi Birliyinin və "5 qardaş" Ədəbi Birliyinin birgə təşkilatçılığı ilə "Səngər generalı" adlı tədbirin keçiriləcəyi məkana - "Çay bağı" istirahət mərkəzinə yaxınlaşdığımızı bildiririk. Sürücü başımızı söhbətə qatdığından Şəhla xanımla sözləşdiyimiz kimi general Polad Həşimovun göz açdığı Vəndamı nə vaxt ötüb keçdiyimizdən xəbərimiz olmur. Ona görə Şəhla xanıma bildirdim ki, orada tədbirin birinci hissəsinə başlasınlar.

Və nəhayət, 12-yə 10 dəqiqə işləmiş qəbələli ziyarətçilər artıq "Çay bağı"ndadırlar. Məclis insanların bir-bir gəlişi ilə canlanır. Tədbiri "5 qardaş" Ədəbi Birliyinin ən fəal üzvü Bəhruz Məmmədov açıb giriş sözü söyləyir, bu tədbirin əsas məramını açıqlayır. Bildirir ki, dünya şöhrətli rəssam Hüseyn Mirtəqəvinin əsərlərindən ibarət sərgi bu dəfə general-mayor Polad Həşimovun xatirəsinə həsr edilib, onun vətənində sərgilənir. Sonra danışmaq üçün sözü Qəbələnin tanınmış ağsaqqalı, ziyalısı Fərman müəllimə verir. O, sərgiöncəsi buradakı əsərlərlə tanış olduğunu, çox məmnun qaldığını və buna görə əsərlərin müəllifi Hüseyn Mirtəqəviyə sonsuz təşəkkürünü bildirir. Tədbirin səbəbkarı Hüseyn Mirtəqəvi Polad Həşimova həsr etdiyi əsəri sərgiləyir, 44 günlük müharibədən əvvəl özünün gördüklərini, ağıllı düşüncələrini bu portretə həkk etdirdiyini dilə gətirir, tamaşaçıya qaranlıq qalmış məqamları açıqlayır. Həmin əsəri elə bu anlarda Sumqayıtdan tədbirə təşrif gətirmiş Polad Həşimovun qardaşı İlham Həşimova hədiyyə edir.

Çıxış edənlər söz alıb danışdıqca məclisin ovqatı daha da dəyişir, hər kəsin çöhrəsində kədərqarışıq təbəssüm də sezilir. Şəhid ailələri indiyədək onlara göstərilən diqqət və qayğını xüsusi qeyd edir, Qəbələdə fəaliyyət göstərən birliyin hər bir üzvünə minnətdarlıq dolu hislərini bildirirlər…

"Yeni Təfəkkür" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Şəmsiyyə Kərimova öz çıxışında rəssam Hüseyn Mirtəqəvinin orijinal üslubda çəkdiyi əsərlərdən, o əsərləri necə də çətinliklə ərsəyə gətirməsindən, işlədiyi portretlərdə qəhrəmanlarının xarakterik cizgilərini ustalıqla verməsindən, eləcə də sənətkarda müşahidə etdiyi müsbət keyfiyyətlərdən söz açır.

İstedadlı qələm sahibi, jurnalist Təranə Cəbiyeva Qəbələyə gəlişindən məmnun olduğunu, tədbirin başlandığı yerin və qəbələlilərin ona doğmalığından, eləcə də Polad Həşimovun rəssam Hüseyn Mirtəqəvinin yaradıcılığında oynadığı xüsusi roldan ətraflı danışır.

Şəhid atası Cəlil Xeyirbəy, "Qəbələnin səsi" Ədəbi Birliyinin sədri Şəhla Xəlilqızı, müavini Mirhəsən Ağayev, şair Raifə Sərxan, eləcə də şəhid ailələri, Polad Həşimovun qardaşı İlham Həşimov və başqaları çıxışlarında tədbirin təşkilatçılarına səmimi arzularını bildirdilər. Hamılıqla qərara alındı ki, belə sərgilər ölkəmizin hər bir guşəsində keçirilməli, böyük sənətkarın əl işləri geniş oxucu auditoriyasına təqdim edilməlidir.

Burada tədbirimizi yekunlaşdırmaq istəməsək də, qəbələli dostlardan ayrılmalı oluruq. Çünki biz İsmayıllının Buynuz kəndində keçirilən bir tədbirə də dəvətli idik…

**Daşdəmir Əjdəroğlu**